BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Humanitar elmlər seriyası 2011*

**UOT 94 (479.24)**

# XVIII ƏSRİN ƏVVƏLLƏRİNDƏ QARABAĞIN ETNİK TƏRKİBİ HAQQINDA (1727-Cİ İLDƏ TƏRTİB OLUNMUŞ «GƏNCƏ-QARABAĞ ƏYALƏTİNİN MÜFƏSSƏL DƏFTƏRİ» ƏSASINDA)

**N.C.ƏSƏDOV**
***Azərbaycan Dillər Universiteti***
***nasadov@mail.ru***

*Xanlıqların əhalisi, etnik tərkibi, əhalinin say nisbəti ilə bağlı işğalaqədərki dövrə aid demək olar ki, qaynaqlarda məlumat yoxdur. Bundan istifadə edən bəzi rus və erməni tarixçiləri Azərbaycan xanlıqlarının, xüsusilə də Qarabağ xanlığının Rusiya işğalına qədərki dövrə aid etnik tərkibi barədə təhrif olunmuş məlumatlar verirlər. Bəhs olunan məsələyə aydınlıq gətirmək məqsədilə məqalədə Qarabağın XVIII əsrin əvvəllərinə aid etnik tərkibini araşdırmağa cəhd göstərilmişdir. Bunun üçün Qarabağ xanlığının XVIII əsrin əvvəllərinə aid etnik tərkibini əks etdirən yeganə tarixi qaynaq olan «Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri» təhlil edilmişdir.*

**Açar sözlər:** Qarabağ, nahiyə, kənd, əhali

Xanlıqların yaranması dövründən başlayaraq XIX əsrin əvvəllərinə qədər Qarabağ xanlığı əhalisinin sayı haqqında da mənbələrdə, demək olar ki, heç bir statistik məlumata rast gəlmək mümkün deyil. Bu səbəbdən xanlıqların yaranmasından onların işğalınadək olan dövrdə Qarabağ xanlığı əhalisinin say dinamikasını izləmək böyük çətinliklər yaradır. Yalnız xanlıqların Rusiya tərəfindən işğal edilməsindən sonra çar məmurları tərəfindən keçirilmiş sayım və kameral təsvir sənədləri Qarabağ xanlığı əhalisinin sayı haqqında konkret rəqəmləri müəyyənləşdirməyə imkan verir. Lakin 1804-1831-ci illər arasında keçirilmiş bu sayım və kameral təsvirlərin özləri belə Qarabağ xanlığı əhalisinin sayı haqqında real mənzərəni əks etdirmir. Çünki, xanlıqların Rusiya tərəfindən işğal edilməsi ilə, 1804-1813-cü illər birinci Rusiya-İran, 1826-1828-ci illər ikinci Rusiya-İran müharibələri, bölgədə baş verən daxili proseslər, xüsusilə də Rusiya imperatorluğunun yerli əhaliyə qarşı həyata keçirdiyi ağır müstəmləkəçilik siyasəti ilə bağlı olaraq Qarabağ xanlığı əhalisinin kütləvi surətdə xaricə miqrasiya etməsi əhalinin sayının kəskin surətdə azalmasına səbəb olmuşdu. Onu da qeyd etməliyik ki, Rusiya işğalının ilk illərində Azərbaycanda, o cümlədən Qarabağ xanlığında çarizmin müstəmləkəçilik

siyasətinə qarşı ən geniş yayılmış mübarizə vasitələrindən biri emiqrasiya idi. Məsələn, 1805-ci ilə Qarabağ xanlığı əhalisinin sayı 10.000 ailə olduğu halda, cəmi iki il ərzində xanlığın əhalisinin sayı iki dəfə azalaraq 5.000 ailəyə enmişdi [5, 25]. 1812-ci il sayımına görə isə Qarabağda qarət edilmiş, əmlakından məhrum edilmiş 3.080 ailə olmuşdur [6, dok. 1265, 836].

Göstərilən səbəblər xanlıqların yaranmasından onların işğalınadək olan dövrdə Qarabağ xanlığı əhalisinin say dinamikasını izləmək üçün böyük çətinliklər yaradır.

XVIII əsrin əvvəllərində Qarabağ əhalisinin sayı ilə bağlı heç bir məlumat olmadığı üçün 1727-ci ildə tərtib edilmiş «Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri»ndə əksini tapmış məlumatları ilkin arayış kimi qəbul etmək olar. Lakin bu qaynağın təhlilinə keçməzdən əvvəl nəzərə çatdırmaq lazımdır ki, «Müfəssəl dəftər»in statistik məlumatları da Gəncə-Qarabağ əyaləti əhalisinin sayı haqqında real tarixi mənzərəni əks etdirmir. «Müfəssəl dəftər»dən məlum olur ki, XVIII əsrin əvvəllərində Gəncə-Qarabağ əyalətində 1178 kənd olmuşdur (müvafiq olaraq 788 kənd Qarabağ əyalətində, 390 kənd Gəncə əyalətində). Lakin bu kəndlərdən yalnız 701-də yaşayış mövcud olmuşdur (Qarabağ əyalətində 431 kənd, Gəncə əyalətində 270 kənd). 477 kənd, başqa sözlə mövcud kəndlərin 40 %-dən çoxu boş qalmışdır (Qarabağ əyalətində 357 kənd, Gəncə əyalətində 120 kənd). Bu kəndlərin boş qalmasının əsas səbəbi XVI-XVIII əsrlərdə baş verən Səfəvi-Osmanlı qarşıdurmalarının nəticəsində əhalinin məcburi miqrasiyasıdır. Belə ki, istər XVI əsr boyunca, istərsə də XVII əsrdə və XVIII əsrin əvvəllərində Səfəvi-Osmanlı qarşıdurmaları zamanı siyasi maraqlarla yanaşı, hər iki dövlətin dini, daha doğrusu, məzhəb maraqları da ön plana çəkilirdi. Ona görə də, döyüşlər zamanı osmanlıların ələ keçirdiyi Azərbaycan torpaqlarında yaşayan şiə əhalinin əksəriyyəti əsasən Səfəvi dövlətinin nəzarəti altında olan ərazilərə köçmək məcburiyyətində qalırdı. Məsələn, 1588-ci ildə Qarabağ bəylərbəyi olan Məhəmməd xan Ziyadoğlu Qacar Osmanlı ordusunun Gəncə şəhərinə yaxınlışmasından bir neçə gün əvvəl tabeliyində olan 50 minə qədər insanı və öz ailəsini əyalətdən çıxarıb, Qaradağda yerləşdirmişdi. Lakin osmanlılar Qaradağı da ələ keçirmiş və buradakı əhalini məhv etmişdilər. Əyalətin qeyri-müsəlman əhalisi isə osmanlılara itaətlərini bildirmiş və bunun müqabilində öz vəzifələrində qalmaqla yanaşı həm də yeni torpaqlar almışdılar [2, 15].

Bundan başqa müharibələr zamanı əhalinin əsir aparılması da demoqrafik vəziyyətə mənfi təsir göstərirdi. Məsələn I.Rəhimzadə «Zəfərnameyi Sultan Murad salis» əsərində yazır ki, Azərbaycanı ələ keçirmək üçün osmanlılara köməyə gəlmiş Krım xanı Qazi Girey Gəncə-Qarabağ əyalətinə soxularaq ərazini talan etmiş və geri qayıdarkən 30 minə qədər əsir aparmışdır [2, 15].

Göründüyü kimi Səfəvi-Osmanlı qarşıdurmaların bütün ağırlığı müsəlman əhalinin üzərinə düşürdü. Bu faktları nəzərə alaraq ehtimal etmək olar ki, «Müfəssəl dəftər»də qeyd olunan boş qalmış 477 kəndin əksəriyyəti əsasən əyalətin müsəlman əhalisinə məxsus kəndlər olmuşdur.

Bütün bu deyilənlərə baxmayaraq bəhs olunan dövrdə Qarabağın əhalisinin böyük hissəsi yenə də müsəlmanlardan ibarət olmuşdur. Bunu «Müfəssəl dəftər»ə əsasən mahallar üzrə tərtib etdiyimiz cədvəllərdən də aydın görmək olar.

«Müfəssəl dəftər»in məlumatlarından aydın olur ki, Qarabağda 20 mahal («müfəssəl dəftər»də nahiyə kimi qeyd olunur) Şütürbasan, Yevlaq Qaramanlı, Talış, Gülüstan, Ingərud, Bərdə, Sir, Bayad, Arasbar, Çuləndər, Bərgüşad, Dizaq, Həkəri, Zarıs, Köçəz, Vərəndə, Çiləbörd, Xaçın, Keştək və Keştasf mahalları (nahiyələri) və 7 camaatlıq-Cavanşir, Otuziki, Kəbirli, Ətyeməzli, Kəngərli camaatlıqları, bundan başqa Püsyan və Qaraçorlu kürd camaatlıqları mövcud olmuşdur. «Müfəssəl dəftər»in məlumatlarında nədənsə İyirmi dörd camaatlığı haqqında məlumat verilmir. Çox güman ki, osmanlıların yürüşü dövründə bu camaatlığın əhalisi Qarabağı tərk etmişdi. Müfəssəl dəftərin məlumatlarına əsasən Qarabağda qeydə alınmış nahiyələr üzrə əhalinin etnik tərkibini aşağıdakı cədvəldən aydın görmək olar.

Cədvəldən göründüyü kimi, «Müfəssəl dəftər»in məlumatlarında 1727-ci ildə Qarabağ ərazisindəki iyirmi nahiyədə bir şəhər, 431 məskun kənd, 357 qeyri-məskun kənd (ümumilikdə 788 kənd) qeydə alınmışdır. Bütövlükdə Qarabağ ərazisindəki əhalinin sayı 10218 ailədən və ya 51090 nəfərdən ibarət olmuşdur. «Müfəssəl dəftər»də Qarabağ əhalisi etnik-dini prinsip baxımından «müsəlman» və «qeyri müsəlman» əhaliyə ayrılmışdır. Müsəlman əhali türklərdən və bütün Osmanlı mənbələrində etnik mənsubiyyəti mütləq şəkildə qeyd olunan kürdlərdən, qeyri müsəlmanlar isə XVIII əsrdə də alban mənşəli olduqlarını unutmayan erməniləşmiş albanlardan və Qarabağa müxtəlif dövrlərdə gəlmiş ermənilərdən ibarət idi. Maraqlı faktlardan biri budur ki, «Müfəssəl dəftər»də yalnız Gəncə-Qarabağ əyalətinin Gəncə bölgəsində yerləşən Şəmkürbasan və Böyük Kürəkbasan nahiyələrindəki 25 kənd «erməni kəndi» kimi qeydə alınmışdır [2, 79-123; 149-155]. Qarabağın ərazisində qeydə alınan (o cümlədən Xaçın, Vərəndə, Çiləbörd, Dizaq, Talış (Gülüstan) məliklərində) qeyri-müsəlman kəndlərindən heç biri erməni kəndi kimi göstərilməmişdir. Buna görə də, onları xristian albanların nəsilləri hesab etmək lazımdır. Bunu «müfəssəl dəftər»in tərtib edilməsindən bir neçə il əvvəl Qarabağın xristian məliklərinin I Pyotra yazdığı məktubdan da aydın görmək olar. Belə ki, 1723-cü ildə Qarabağın dörd məliyinin I Pyotra yazdığı məktubda Qarabağın xristian əhalisi «ağvanlar» adlandırılmışdır [8, 29]. Məktubda Vərəndə və Gülüstan kəndlərinin məlikləri əhalini «ağvan xalqı» adlandırır və «müsəlmanların xristian ağvanların evlərini qarət etmələrindən» bəhs edirlər [8, 29].

## Qarabağ əhalisinin etnik tərkibi (1727-ci il üçün)

| № | Nahiyə və elatlar | məskun kəndlər | q/məskun kəndlər | müsəlman kəndi | q/müsəlman kəndi | qarışıq kənd | müsəlman əhalinin sayı | q/müsəlman əhalinin sayı |
|---|---|---|---|---|---|---|---|---|
| 1. | Bərdə şəhəri | – | – | – | – | – | 2410 | – |
| 2. | Bərdə | 35 | 6 | 31 | 1 | 3 | 5380 | 300 |
| 3. | Şütürbasan | 18 | – | 18 | – | – | 2745 | – |
| 4. | Talış | 12 | – | – | 12 | – | – | 2380 |
| 5. | Gülüstan | 6 | 3 | – | 6 | – | – | 905 |
| 6. | Yevlaq Qaramanlı | 9 | – | 6 | 1 | 2 | 2855 | 335 |
| 7. | Incərud | 10 | 6 | 8 | 1 | 1 | 595 | 90 |
| 8. | Sir | 27 | 13 | 26 | – | 1 | 3640 | 50 |
| 9. | Bayad | 8 | 16 | 8 | – | – | 445 | – |
| 10. | Xaçın | 39 | 40 | 1 | 38 | – | 45 | 2815 |
| 11. | Çiləbörd | 23 | 2 | 1 | 22 | – | 55 | 2820 |
| 12. | Keştək | 7 | 22 | 4 | 3 | – | 95 | 190 |
| 13. | Zarıs | – | 14 | – | – | – | – | – |
| 14. | Vərəndə | 36 | 27 | 3 | 33 | – | 95 | 3200 |
| 15. | Dizaq | 46 | 34 | 18 | 26 | 2 | 1750 | 3130 |
| 16. | Köçəz | 5 | 14 | – | 5 | – | – | 215 |
| 17. | Keştasf | – | 7 | – | – | – | – | – |
| 18. | Arasbar | 10 | 65 | 10 | – | – | 390 | – |
| 19. | Həkəri | 1 | 25 | – | – | 1 | 130 | 35 |
| 20. | Bərgüşad | 66 | 32 | 52 | 14 | – | 4380 | 735 |
| 21. | Çuləndər | 20 | 29 | 16 | 4 | – | 580 | 160 |
| 22. | Cavanşir camaatı | 25 | – | 25 | – | – | 2710 | – |
| 23. | Otuziki camaatı | 20 | – | 20 | – | – | 2035 | – |
| 24. | Kəbirli camaatı | 1 | – | 1 | – | – | 125 | – |
| 25. | Kəngərli camaatı | 1 | – | 1 | – | – | 145 | – |
| 26. | Ətyeməz camaatı | 2 | – | 2 | – | – | 210 | – |
| 27. | Püsyan kürdləri | 3 | – | 3 | – | – | 955 | – |
| 28. | Qaraçorlu kürdləri | 1 | – | 1 | – | – | 2000 | – |
| | **YEKUN** | **431** | **357** | **255** | **166** | **10** | **33730** | **17360** |

***Qaynaq***: «Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri» B., 2000.

Xristian albanların erməni olmadığını V.L.Veliçko da təsdiq edir. Bu barədə V.L.Veliçko yazır: «…Tiflis Quberiniyasının bir hissəsini, Yelizavetpol quberniyasını və Dağıstanın cənub hissəsini əhatə edən Albaniya və yaxud Ağvaniya xristianlığı ermənilərdən qəbul edən, lakin mənşəcə erməni olmayan xalqların vətənidir. XIX əsrin əvvəllərinə qədər Eçmiədzin kilsəsi ilə rəqabət aparan və əsasən müstəqil olan Ağvan və ya Qandzasar katolikosluğu mövcud olmuşdur. Əvvəllər Ağvan katolikosluğunun dindarları olan əhali indi erməni adlandırılır. Onlar ermənilərlə qaynayıb qarışmış və ermənilərin xasiyyətlərini götürmüşlər [7, 59].

Hesablamalarımıza görə, 1727-ci ildə Qarabağda qeydə alınmış 10.218 ailənin 6746-sı (33.730 nəfər) müsəlmanlardan, 3472-si (17.360 nəfər) isə

qeyri-müsəlmanlardan ibarət olmuşdur. Bərdə nahiyyəsində qeydə alınmış Qarabağın o dövrdə yeganə şəhəri olan Bərdə şəhərinin 482 ailəsi (2.410 nəfər) içərisində bir nəfər də olsun qeyri-müsəlman göstərilməmişdir [2, 277-282] Qarabağ ərazisində yaşayışı olan 431 kəndin 255-i müsəlman, 166-sı qeyri-müsəlman kəndi olmuş, 10 kənd isə qarışıq kənd kimi qeydə alınmışdır.

Qeyri-müsəlman əhali Qarabağın əsasən altı nahiyəsində-Dizaq, Gülüstan, Talış, Vərəndə, Xaçın və Çiləbörddə məskunlaşmışdı [2, 171-179; 342-373; 380-428]. «Müfəssəl dəftərin məlumatına görə Talış nahiyəsindəki 12 məskun kənddə 476 qeyri-musəlman ailə (2380 nəfər) yaşamışdır. Nahiyənin ən böyük kəndləri Nurus (105 ailə) və Talış (104 ailə) olmuşdur. Gülüstan nahiyəsində qeydə alınmış 6 məskun kənddə 181 ailə (905 nəfər) qeyri-müsəlman qeydə alınmışdır. Qarabağın Xaçın nahiyəsində qeydə alınmış 39 məskun kənddən yalnız biri-Safquyulu kəndi (9 ailə) müsəlman kəndi kimi göstərilmiş, qalan 38 kənddə isə 563 qeyri-müsəlman ailə (2815 nəfər) yaşamışdır [2, 342-363].

«Müfəssəl dəftər»in məlumatına görə Qarabağın Çiləbörd nahiyəsindəki 23 məskun kənddən biri-Gülablı kəndi (11 ailə) müsəlman kəndi kimi qeydə alınmışdır. Qalan 22 qeyri-müsəlman kəndində 564 qeyri-müsəlman ailə (2820 nəfər) yaşamışdır [2, 363-373].

«Müfəssəl dəftər»in Qarabağın Vərəndə nahiyəsində qeydə aldığı 26 məskun kəndin üçü-Əszor (6 ailə), Hacıözü (9 ailə) və Abdal (4 ailə) müsəlman, 23 kənd isə qeyri müsəlman kənd kimi göstərilmişdir. Ümumilikdə, Vərəndə nahiyəsi üzrə 659 ailə (3295 nəfər) qeydə alınmış, onlardan 19 ailə (95 nəfər) müsəlmanlardan, 640 ailə (3200 nəfər) qeyri-müsəlmanlardan ibarət olmuşdur [2, 380-401].

«Müfəssəl dəftər»in məlumatına görə Qarabağın Dizaq nahiyəsində qeydə alınmış 46 məskun kənddən 18-i müsəlman, 26-sı qeyri-müsəlman, 2 kənd isə qarışıq kənd olmuşdur. Nahiyənin əhalisi ümumilikdə 976 ailədən (4880 nəfər) ibarət olmuş, bunlardan 350 ailə (1750 nəfər) müsəlman, 626 ailə isə (3130 nəfər) qeyri-müsəlman kimi qeyd olunmuşdur [2, 401-429].

Qarabağın Şüturbasan, Bayad, Arasbar nahiyələri və Qarabağ elatları içərisində isə bir nəfər də qeyri-müsəlman qeydə alınmamışdır [2, 156-170, 336-341, 436-471, 472-484]. Qarabağda yerləşən Yevlaq Qaramanlı, Bərdə, İncərud, Həkəri, Sir, Bərgüşad və Çuləndər nahiyələri əhalisinin böyük əksəriyyəti müsəlmanlardan ibarət olmuşdur [2, 180-192, 283-306, 307-335, 485-541] «Müfəssəl dəftər»in məlumatlarından aydın olur ki, Qarabağın Zarıs və Keştasf nahiyələrində bəhs olunan dövrdə yaşayış olmamışdır [2, 433-436]. Bu da yuxarıda göstərdiyimiz kimi Osmanlı ordusunun hücumu zamanı müsəlman əhalinin öz yaşayış yerlərini tərk etməsi ilə bağlıdır.

1727-ci ildə Qarabağda qeydə alınmış 6746 müsəlman ailəsindən 6155 ailə türk mənşəli, 591 ailə isə kürd mənşəli olmuşdur. Püsyan kürdləri üç oymaqdan, Qaraçorlu kürdləri isə 400 təsərrüfatdan (Qaraçorlu kürdlərinin neçə oymaqdan ibarət olduğu göstərilmir) ibarət olmuşdur [2, 469-471].

Bütün bu qeyd edilmiş məlumatları ümumiləşdirdikdə aydın görünür ki,

Qarabağın aborigen əhalisi azərbaycanlılar olmuşdur. Əhalinin əsas hissəsini müsəlmanlar təşkil etmiş, xristian əhalinin əksər hissəsini erməniləşmiş albanlar olmuşlar. Eyni zamanda tarixin XIX əsrin əvvəllərinə qədərki bütün dövrlərində ermənidilli əhali Qarabağda azərbaycanlılara nisbətən ölçüyəgəlməz dərəcədə azlıq təşkil etmişdir. Ermənilərin kütləvi surətdə Qarabağa axışması isə XIX əsrin I yarısında baş vermiş Rusiya-Iran və Rusiya-Osmanlı müharibələrindən sonrakı dövrə aiddir.

## ƏDƏBİYYAT


**Azərbaycan dilində**

1. Əsədov N.C. «Qarabağın erməni əhalisinin mənşəyinə dair» // Bakı Dövlət Universiteti, Tarix və onun problemləri, Bakı, 2007, № 4, s. 357-362.
2. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Ön söz, qeyd və şərhlər Hüsaməddin Məmmədovundur. Bakı: Şuşa nəşriyyatı, 2000, 576 s.
3. Qeybullayev Q. Qarabağ (etnik və siyasi tarixinə dair). Bakı: Elm, 1990, 248 s.
4. Mustafayev T.T. Qarabağ (Gəncə) bəylərbəyliyi XVIII əsrin I qərinəsində // Azərbaycan SSR EA xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası. 1988, № 3, 37-40.
5. Verdiyeva H.Y. XIX əsrin I yarısında Şimali Azərbaycan əhalisi. Bakı: Elm, 1993, 133 s.

**Rus dilində**

6. Акты, собранные Кавказской археографической комиссией. В 12-и томах. Под ред. А. Берже. Т. VI, ч. I. Тифлис: Типография Главного Управления Наместника КавкАза, 1874, 941 с.
7. Величко В. Кавказ. Баку: Элм, 1990, 222 с.
8. Джалалян Е.Х. Краткая история страны Албанской (1702-1722). Баку: Элм, 1989, 87 с.


## ОБ ЭТНИЧЕСКОМ СОСТАВЕ КАРАБАХА В НАЧАЛЕ XVIII ВЕКА (В ОСНОВЕ «ПОДРОБНАЯ ТЕТРАДЬ ГЯНДЖИНСКО-КАРАБАХСКОЙ ПРОВИНЦИИ»)


**Н.Дж.АСАДОВ**


### РЕЗЮМЕ


В статье была сделана попытка исследовать этнический состав Карабаха в начале XVIII века. Для этого использовался труд «Подробная тетрадь Гянджинско-Карабахской провинции», который является единственным научным источником по данной теме.



**Ключевые слова:** Карабах, округ, село, населения


## ON THE ETHNIC COMPOSITION OF GARABAGH IN THE EARLY XVIII CENTURY (ON THE BASIS OF SYSTEMATIC COPYBOOK OF GANJA-GARABAGH PROVINCE)


**N.J.ASADOV**


### SUMMARY


The article investigates the ethnic composition of Garabagh. The only systematic-historical source reflecting the ethnic composition of Garabagh has been analysed.



**Key words:** Garabag, village, population